

# NÜBUVVƏT ARQUMENTİ

## İslam peyğəmbərinin mənəviyyat ölçüləri

Tərtib etdi: “Çolaq Addım” səhifəsi

**ÖN SÖZ**

Nübuvvət - seçilmiş insanın Allah risaləsini bəşəriyyətə çatdırmasıdır. Şübhəsiz ki, bu rolu oynayacaq şəxsin ən əsas xislətlərindən biri dürüstlük olmalıdır. Müsəlman alimləri deyiblər ki, nübuvvət iddia edən şəxs ya insanların ən doğru danışanı, ya da Aləmlərin Yaradıcısına iftira atdığına görə insanların ən yalançısıdır. Başqa bir seçim yoxdur. Allah Rəsulunun nübuvvətinə inanmayanlar onun daima həm sözündə, həm də əməlində doğru olmadığını, ətrafındakıları həyatı boyu aldatdığını, həm şəxsi, həm də ictimai həyatında həqiqi şəxsiyyətini gizlədib münafiqliyin ən üstününü etdiyini, ona inananlara həyatlarında ən böyük xəyanəti etdiyini deməlidirlər. Ən fəzilətli insan ilə ən naqis insan arasındakı fərqi anlamaq üçün yüksək bəsirət sahibi olmağa gərək yoxdur. Bunu anlamaq üçün peyğəmbərlik iddia edənin əxlaqından xəbərdar olmaq lazımdır. Allah Rəsulunun həyatını oxuyan bunun necə də həqiqətdən uzaq bir iddia olduğunu anlayacaqdır.

## -1-

## Dürüstlük

Allah Rəsulunu yalanda və xəyanətdə ittiham edən özünü çox çətin işlə mükəlləf etmişdir. Necə olur ki, zahiri halı Rəbbinin təkliyinə dəvət edib qəlbləri şirkdən azad etmək, həyatı zühd və dünya ləzzətlərindən uzaq durmaq, məqsədi insanların həyatlarını islah etmək olan birisi həyatı boyu: qəzəbli və ya sevincli, hərbdə və ya sülh zamanı, çətinlikdə və asanlıqda olduğundan asılı olmayaraq - bütün bu hallarda həqiqətdə qəlbində insanlara göstərdiklərinin əksini gizlətsin?

Fransalı oriyentalist Paul Casanova "Mohammed et la fin du monde" (Muhamməd və Dünyanın Sonu) adlı kitab yazır. Bu kitabda o, Quranın Allah tərəfindən nazil olduğunu və səhabələrin onu qoruyub növbəti nəsillərə çatdırdığını şiddətlə inkar edir. Bununla belə Peyğəmbərin şəxsiyyətinə gəldikdə o deyir: "**Bununla bərabər Muhammədin doğruluğunda şəkk edən bütün teoriyaları mən başdan rədd edirəm... Heç bir dəlil olmadan onun hansısa dünya mənfəəti üçün yalan dediyini iddia etmək elmi yanaşmaya ziddir. Ərəb peyğəmbərin bütün həyatı bizə onun ixlaslı şəxsiyyət olduğunu sübut edir".**

Allah Rəsulunun nübuvvətdən qabaqkı həyatı bizə ən bariz nümunələrdəndir. O, öz qövmü arasında "Doğru danışan", "Əmin" ləqəbləri ilə tanınmışdır. Hətta nübuvvət iddia edəndən sonra qövmü onun nübuvvətini inkar etmiş, lakin onu açıq aydın yalanlamamışdır. Bunu Quran belə bizə nəql edir:

*"Biz bilirik ki, onların dedikləri səni kədərləndirir. Əslində onlar səni yalançı hesab etmirlər. Lakin zalımlar Allahın ayələrini inadla inkar edirlər".*[1]
Allah Rəsulu qövmünü imana dəvət etməklə əmr olunduqda Səfa dağına çıxdı və qövmünü çağıraraq dedi: "Əgər sizə xəbər versəm ki, bu vadidə qoşun toplaşıb sizə hücum etmək istəyirlər, mənə inanarsınızmı?". Onlar bəli dedikdə O, Allah tərəfindən göndərilmiş bir peyğəmbər olduğunu onlara demişdir.[2] Bu qissədə maraqlı olan hissə odur ki, ərəblər cahiliyyə dövründə Kəbənin müqəddəs yer olduğunu, orada müharibə edilməyəcəyinə inanırdılar, ona görə də kiminsə Məkkəyə hücum edəcəyi təsəvvür edilə bilməzdi. Bununlar bərabər Muhammədin yalan danışacağı bundan da təsəvvüredilməz bir iş olduğu ortaya çıxdı.

Allah Rəsulunun həyatından məlum olan digər məqam isə Mədinəyə hicrət etmək istədikdə Əli ibn əbu Talibə əmanətləri sahiblərinə çatdırmağı əmr etməsidir. Onun nübuvvətini inkar edən qövm yenə də əşyalarını ona əmanət edir, o isə onları geri qaytarmağı özünə borc bilir.
Uhud döyüşündə Ubeyy ibn Xələf Allah Rəsulunu öldürmək istədikdə Allah Rəsulu onu yüngülcə yaralayır. Qövmünün yanına qayıdan Ubeyy "Vallah, Muhamməd məni öldürdü" dedi. Onlar isə "sənin heçnəyin yoxdur, bu sadəcə yüngül cızıqdır" cavab verdilər. Ubeyy dedi: "O, mənə Məkkədə məni öldürəcəyini demişdi, Vallahi, əgər üzərimə tüpürsəydi məni öldürərdi..." Bir müddət sonra Ubeyy bu yara səbəbilə ilə vəfat edir. Bu qissə bizə yenə də göstərir, ki müşriklər Allah Rəsulunun daima doğru danışdığını bilirdirlər, ona görə belə bir vədin mütləq baş verəcəyini gözləyirdilər.[3]
Bizans imperiyasının imperatoru belə Allah Rəsulunun doğru danışdığını zəkası ilə anlamışdır. Əbu Sufyan ibn Hərb kafir olduğu dönəmdə

---
[1] Ənam surəsi, 33
[2] Tirmizi, 4023.
[3] İbn İshaq

Heracliusun yanına gedir, imperator da ona yeni peyda olmuş peyğəmbər haqda bir çox sual verir. Bu suallardan biri: "Peyğəmbərlik iddia edəndən əvvəl onun yalan dediyini görmüsünüzmü?" Əbu Sufyan digər müşriklər yanında yalan deməkdən utanıb peyğəmbərin heç bir zaman yalanda ittiham olunmadığını xəbər verir. Bunun üzərinə Heraclius deyir: "Bu cavabından mənə aydın oldu ki, o, insanlar haqda yalan danışmırsa Allaha (iftira atıb) yalan danışmaz..."[4]

Heç kimə gizli deyil ki, Allah Rəsulunun davamçıları onun ən doğru danışan olduğuna daim şahidlik ediblər. Bunda necə bir dəlil ola bilər? Unutmayaq ki, onlar Allah Rəsuluna zəif olduğu, dövlət başçısı olmadığı, ona iman etməkdən heç bir dünyəvi mənfəət ala bilmədikləri, əksinə daimi əzaba düçar olduqları dönəmdə iman ediblər. Deməli onun doğru danışdığından o qədər əmin idilər ki, bütün bu əzab-əziyyətə dözməyə razı olublar. Xristian oriyentalist William Mour bunu Allah Rəsulunun yalançı olmadığına bir dəlil görür: **"Muhammədin doğru danışan olduğuna ən böyük dəlillərdən ona ilk iman edənlərin yaxın dostları və qohumları olmasıdır. Onların Muhamməd ilə sıx əlaqələri olmuşdu, onun şəxsi həyatı onlardan gizli qala bilməzdi, beləliklə onun ictimai həyatında yalan deyib münafiq olduğu onlara - az və ya çox - aydın olmalı idi."**[5]

Allah Rəsulunun həyatını insaf ilə oxuyan hər bir kəs bu nəticəyə gəlməlidir. Buna görə də onun həyatı üzrə qərbdə əsas mütəxəssislərdən sayılan şotlandiyalı xristian oriyentalist Montgomery Watt deyir: **"İnancı üçün zülmə dözməyə hazır olması, ona inanan və lider kimi qəbul edən insanların yüksək mənəviyyatı və sonda əldə etdiyi nailiyyətlərin böyüklüyü - bunlar hamısı onun fundamental**

[4] Buxari 4278, Muslim 1773.
[5] The life of Mahomet, p60

**dürüstlüyünə dəlalət edir. Muhammədi yalançı hesab etmək həll etdiyindən daha çox problem ortaya çıxarır."[6]**

## Allah Rəsulu dünyəvi mənfəət güdüb?

Yalandan nübuvvət iddia edənin dünya ləzzətlərinə, insanları üzərində hökmranlığa can atmasından başqa nə qayəsi ola bilər ki? Allah Rəsulunun həyatına baxdığımızda bu istəklərdən bir əsər-əlamət tapa bilirikmi? Müsəlmanların zəif olduqları Məkkə dönəminə baxmayaq. Dövlət qurduqları və gücləndikləri Mədinə dövrünə baxaq. Mədinədəki evinə baxsaq onu çox dar bir otaqdan olduğunu görəcəyik. Dünya şəhvətləri qəlbini doldurmuş biri dar yerdə yaşayarmı? Yeməyinə və içməyinə nəzər salsaq görəcəyik ki, xanımı Aişə deyir: **"Allah Rəsulu Mədinəyə gəldikdən sonra öldüyü günə qədər onun ailəsi üç gün dalbadal yeməkdən doymadı".[7]**

Yaxın dostu Ömər ibn Xəttab isə daha da acınacaqlısını bizə xəbər verir: **"Allah Rəsulunu (aclıqdan) qıvrıldığını gördüm; yeyəcək xurma belə tapmırdı"[8]** Hətta ölüm ayağında olduğunda xanımına əmr edir ki, evində sədəqə üçün saxladığı qızılı dərhal kasıblara paylasın. Evində qızıl qalaraq ölmək istəmirdi.[9] Dünya ləzzətləri üçün çalışan özündən sonra ailəsini üçün də eynisini düşünmürmü? O isə öldü və "evində biraz arpadan başqa canlının yeyəcəyi heç bir şey yox idi"[10]

Allah Rəsulunun Mədinəyə köçdükdən sonra bütün dünya ləzzətlərinə nail olması üçün sadəcə bir söz deməsi kifayət idi. Dünya ləzzətlərinin quluna çevrilmiş birisinin bunu etməməsi mümkünsüzdür. Bunun müqabilində Allah Rəsulunun istəyi, qayəsi nə idi? Ömər ibn Xattab Allah

---

[6] Mohammad at Mecca, p52
[7] Buxari 2089, Muslim, 2970
[8] Muslim, 2977
[9] Əhməd
[10] Buxari 6086, Muslim 5281

Rəsulunun otağına daxil olur, onun sadəcə bir köynəyi, üzərində yatdığı və bədənində izlər saxladığı həsiri və bir neçə heyvan dərisi olduğunu görür. Buna dözməyib gözləri yaşarır və Allah Rəsulu ona: "ey Xattabın oğlu, səni ağladan nədir?" deyir. Ömər Qeysərin (Bizans imperatoru) və Kisranın (Fars şahı) nemətlər içində onun isə Allah Rəsulu olmasına baxmayaraq çətinlik içində yaşamasına görə ağladığını deyir. Burada Allah Rəsulu öz qızıl sözlərini deyir: "Razı olmazmısan dünya həyatı onların, axirət isə bizim olsun?" Allah Rəsulunun əsl qayəsinin nə olduğunu bir daha anlamış oluruq.

New Catholic Encyclopedia da dediyimizi təsdiq edir: **"Muhəmmədin dini dəvətinin qayəsi varlanmaq idi iddiası həqiqətə müvafiq deyil".**[11]

Mahatma Gandhi yazır:

**Qərb qorxunc bir qaranlıq içindəykən, Şərqdə parlayıb göz qamaşdıran İslam ulduzu əzab çəkən dünyaya nur, sülh və rahatlıq gətirmişdir. Mən İslam peyğəmbərinin və onun yaxınında olanların necə yaşadıqlarını bildirən kitabları oxudum. Mənə o qədər təsir etdi ki, kitabları bitirdiyim zaman bunlardan daha çox olmamasına heyfsləndim. Bu qənaətə gəldim ki, islamın sürətlə yayılması qılınc səbəbiylə olmamışdır. Əksinə, hər şeydən öncə peyğəmbərin böyük təvazökarlığı, daim sözünün üstündə durması, yaxınlarına və müsəlman olan hər kəsə qarşı sonsuz sədaqəti səbəbiylə islam dini bir çox insanlar tərəfindən sevə sevə qəbul edilmişdir.**[12]

---

[11] Vol IX, p. 1001

[12] “Young India”, 1924

**-2-**

Fransız şairi Alphonse de LaMartaine "Historie de la Turquie"-də deyir: **"İnsan övladının böyüklüyünü ölçə biləcək bütün meyarları ələ aldıqda belə bir sual verə bilərik: Muhamməddən daha böyük şəxsiyyət varmı?"** LaMartaine kimi Peyğəmbərimizin böyüklüyünə, dürüstlüyünə və əxlaqına şahidlik edəcək onlarca, bəlkə də yüzlərcə qeyri müsəlmanın sözlərini yazmaq olar. Lakin biz oxucumuza Peyğəmbərlə uzun müddət bərabər yaşayan, onun həm ictimai, həm də şəxsi həyatından xəbərdar olan insanların şahidliklərini qeyd etmək istəyirik. Bununla oxucumuzu müstəqil şəkildə onun əxlaqı haqda qərar verməyə dəvət edirik. Qeyd edəcəklərimizdə sadəcə səhih hədislərə və Peyğəmbəri yaxından tanıyanların sözlərinə etimad edəcəyik.

Bəlkə də kimsə bundan sonra "Yaxınları onun haqda yalandan rəvayətlər uydurublar" iddiası ilə oxumamağa qərar verəcəkdir. Belə düşünənləri bir daha düşünməyə dəvət edirik: bu insanlar Allah Rəsulunun bütün bu xislətlərini görüb ona iman etmiş kəslərdir. Onlar İslamı qəbul etdiklərinə görə pul və mənfəət əldə etmir, əksinə çətin həyata, əzab-əziyyətə düçar olurdular, yaxınlarından ayrılır, vətənlərindən qovularaq uzun müharibələr etməyə məcbur qalırdılar. Onun yalançı olduğunu bildikləri halda ilk öncə iman etmələri sonra isə bunları uydurmaqlarının mənası nə idi? Həyatlarını, övladlarını, mallarını təhlükəyə atmağın mənası nə idi? Başqa bir sual da verə bilərik: nəyə görə tarix başqa böyük şəxsiyyət haqqında belə uydurmalara şahidlik etmir? Ümumiyyətlə bu qədər şəxsin yalan üzərində birləşmələri nə qədər ağlabatandır? Ona görə də oxucularımızı tələsik qərar verməməyə və haqqı axtardıqları təqdirdə səbrlə oxumağa dəvət edirik. Məsələni geniş oxumaq istəyən bu haqda yazdığımız məqaləyə də müraciət edə bilər.[13]

[13] https://colaqaddim.files.wordpress.com/2018/07/nc3bcbuvvc999t-arqumenti.pdf

Oxuduğunuz zaman iki məsələni ağlınızda tutmanız lazımdır:

1) Michael Hartın İslam Peyğəmbərinə "The 100: A Ranking of the Most İnfluential Persons in History" kitabında birinci yer verdiyi hamıya məlumdur. Hart bu seçiminin səbəbini belə izah edir ki, Muhamməd qədər eyni zamanda həm dini, həm də dünyəvi sahədə uğur qazanmış ikinci bir şəxsiyyət mövcud deyildir. Buna görə də onun haqda oxuyanda onu sadəcə qızıl taxtda oturan Roma Papası, yahudi rahibləri və ya hər hansı bir dini liderlə müqayisə etməyin; həmçinin o dövrün kralları, imperatorları və bizim dövrümüzdə yaşayan dövlət başçıları ilə də müqayisə edin.

2) İslam Peyğəmbərinin daşıdığı mənəvi dəyərləri analiz edərkən həm də onun yaşadığı o dövrkü cəmiyyəti göz qabağına gətirin. O dövrdə Ərəb yarımadasındakı cəmiyyətin nə qədər sərtqəlbli olduğu tarixçilərə məlumdur. Qız uşaqlarının diri-diri basdırması bəlkə də buna ən böyük dəlillərdəndir.

**-3-**

Peyğəmbərimizin həqiqi əxlaqını anlamaq üçün uzun-uzadı onun həyatını oxumamız lazımdır. Peyğəmbərin xanımı Aişə bizə xəbər verir: **"Allah Rəsulu Allah yolunda cihad etməkdən başqa heç bir zaman heç bir şeyi əli ilə vurmamışdır; nə xanımlarından, nə də xidmətçilərindən birini vurmamışdır"**[14]

İslam Peyğəmbəri qövmündə mütləq olaraq itaət edilən rəhbərdir, insan öldürməyi əmr etsə heç kim bu qərarı sorğulamaz, lakin bununla bərabər ömründə heç kimsəni vurmamışdır. Bundan daha təəccüblü olan isə

[14] Səhih Muslim, 2328

xidmətçisi Ənəs ibn Malikin sözüdür: **"Allah Rəsuluna on il xidmət etdim. Mənə heç bir zaman "uff" belə demədi. Heç bir zaman etdiyim bir şeyə "nəyə görə bunu etdin", etmədiyimə isə "nəyə görə bunu etmədin" demədi".**[15]

On il xanımı ilə yaşamış və onu heç bir zaman vurmamış əri nümunəvi hesab etmək olar. Bu necə bir əxlaqdır ki, insan on il xanımına deyil xidmətçisinə vurmaq bir tərəfə, ağır söz belə deməmiş? Onu söyməmiş, etdiyinə görə acılamamış, məzəmmət etməmiş, qınamamış, hətta yüngülcə danlamamışdır.

Hər kəs, istər müsəlman olsun istər qeyri müsəlman, nəfsində özü haqda düşünsün: ən çox hörmət etmək ilə əmr olunduğumuz valideynlərimizə münasibətimiz necədir? Onlara əmr olunduğumuz kimi "uff" belə deməməyi bacardıqmı? Nəzərə alın ki, Ənəs uşaq idi və uşağın qınağa layiq əməl etməsi tez-tez baş verir. Ənəs deyir: **"Allah Rəsulu ən əxlaqlı insan idi. Bir gün məni bir yerə göndərdi və mən (nəfsimdə) Allaha and olsun ki, getməyəcəm dedim... Küçəyə çıxdım və oynayan uşaqlara rast gəldim... Birdən Allah Rəsulu məni ənsəmdən tutdu. Ona baxdım, o isə gülərək: "ey Ənəs, dediyim yerə get" dedi..."**[16]

Bu rəvayətdən Ənəsin uşaq olduğunu və uşaqlara başı qarışdığı üçün işini ehmal etdiyini görürük. Allah Rəsulu isə onun qəlbini qırmamış, ona çox gözəl şəkildə rəftar etmişdir.

Allah Rəsulu xidmətçilər haqda deyir: **"(Onlar) sizə xidmət edən qardaşlarınızdır... Onlara yediklərinizdən yedirin, geyindiklərinizdən geyindirin, onlara edə bilməyəcəkləri (ağır) iş tapşırmayın, tapşırdığınız zaman isə onlara yardım edin"**[17]

[15] Buxari 6038, Muslim 2309
[16] Muslim,2310
[17] Buxari 30, Muslim 1661

Dediklərini ilk yerinə yetirən də özü olub. Ona xidmət etmək üçün qul olaraq hədiyyə edilən hər bir kəsi dərhal azad etmiş, xidmətçilərini evləndirmiş, onlara ehtiyacları olduqları maldan vermiş, onların hal-əhvalını soruşmuş, yorulana yardım etmiş, miniyindən enib xidmətçisini otuzdurmuş, bəzən isə özü onlara xidmət etmişdir.

**Uşaqlara qarşı etdiyi muamələ**

Ənəsin sözlərindən başladığımız üçün Ənəs kimi uşaqlara qarşı etdiyi muamilə ilə davam edək. Ənəs deyir: **"Allah Rəsulu bizimlə oturub-durardı, bizə qarışardı, hətta mənim kiçik qardaşıma: "Ey əbu Umeyr, necədir sənin Nuğeyr?" deyərdi"[18]** Allah Rəsulu uşağın quşcuğazı ilə maraqlanar, yəni uşağa onu maraqlandıracaq məsələlər ilə xitab edərdi. Eyni zamanda ona künyə ilə xitab edir, künyə ilə xitab etmək isə ərəblərdə hörmət əlamətidir. Başqa bir hədisdə Ənəsin uşaqlara salam verdiyini görən şəxslər bunun səbəbini soruşur və Ənəs bunu Allah Rəsulundan öyrəndiyini bizə xəbər verir. Uşaqlara salam verən kral təsəvvür edirsiz?

Allah Rəsulu ən sevdiyi əməli - namazı belə uşaqlara və analara rəhm edərək qısaldar və deyərdi: **"Mən namaza daxil olur və onu uzatmaq istəyirəm, lakin uşağın ağladığını eşidəndə onun anasının nə çəkdiyini bilirəm və namazı qısaldıram"[19]** Allah Rəsulunun bu rəhməti sadəcə müsəlman ana-balaya aid deyil, hərb zamanı əsir düşən ana-bala haqqında belə o demişdir: **"Ana ilə övladını ayıran birisini Allah Qiyamət Günü sevdiklərindən ayırar"[20]** Allah Rəsulunun bu əmrini bu gün özünü dünyanın ağası hesab edən ABŞ-ın onun sərhədlərini pozan

[18] Buxari 5778, Muslim 4003
[19] Buxari 709, Muslim 192
[20] Tirmizi,1283

miqrantlar arasında valideynləri uşaqlardan ayırma siyasəti ilə müqayisə edin.

Allah Rəsulu səcdədəykən onun belinə çıxan nəvələrini heç bir zaman acılamazdı, əksinə onları dizləri üzərinə otuzdurardı. Bizdən birimiz bütün diqqətini tələb edən işdə mane olan uşağa nə qədər səbr edə bilərik? Allah Rəsulu sadəcə öz nəvələrini deyil, başqa uşaqları da belində gəzdirərdi. Ummu Xalid adlı səhabə qadın bizə rəvayət edir ki, uşaq olduğunda atası ilə Allah Rəsulunun yanına gəlmiş və onun belindəki nübuvvət xalı ilə oynamağa başlamışdı. Atası bunu ona qadağan etsə də Allah Rəsulunu uşaqla oynamağa davam etmişdir.[21] Bir çox səhih hədisdə Allah Rəsulunun dizlərinin üzərinə otuzdurduğu uşaqlar onun paltarının üzərinə bövl etmiş, Allah Rəsulu isə bundan heç bir zaman qəzəblənməmiş və durub sakitcə paltarını təmizləmişdir.

**Böyüklərə hörmət**

Allah Rəsulu sadəcə "kiçik yaşlılarımıza rəhm etməyən bizdən deyildir" deməmişdir, eyni zamanda "böyüklərimizə hörmət etməyən bizdən deyildir" də demişdir. Əbu Bəkr Məkkə fəthi günü qoca atasını əllərində daşıyaraq Allah Rəsuluna beyət üçün gətirdikdə o dedi: "Nəyə görə bu şeyxi evində saxlamadın ki, biz onun yanına gedək?". Etiraz oluna bilər ki, ərəblər daima qocalarına hörmət ilə yanaşmış. O zaman Allah Rəsulunun cahiliyyə cəmiyyətində aşağı statusu olan qadına muamiləsinə baxaq. Ağlınızda tutun ki, biz qız uşağı doğulanda bunu eyib bilən, bəzən qızını diri-diri basdıran bir qövm haqqında danışırıq. Allah Rəsulunun öz anası uşaq ikən vəfat edib, lakin bir kişi ondan "yaxşı rəftara ən layiq adam kimdir?" soruşduğunda "anan" cavabını verir, kişi eyni sualı iki dəfə də təkrarlayır və eyni cavabı alır. Sadəcə dördüncü dəfə soruşduqda "atan"

[21] Buxari, 3071

cavabını alır.[22] Bu gözəl rəftara sadəcə müsəlman valideyn deyil, müsəlman olmayan valideyn də layiqdir, belədir ki, Əsma bint Əbu Bəkrin anası hələ müsəlman olmadığı bir vaxt qızının evinə gəlir, Allah Rəsulu isə ona anası ilə əlaqələri kəsməməyi əmr edir.[23]

**Qadınlara qarşı əxlaqı**

Qız uşaqları və bacılar da Allah Rəsulunun diqqətindən yayınmamış. Ondan belə bir müjdə alırıq: **"Kimin üç və ya iki qızı və ya üç bacısı olar, onlara gözəl rəftar etsə və onların haqlarını qorumaqda təqvalı davransa Cənnətə daxil olar."[24]** Həyat yoldaşları qadınlar haqqında isə Allah Rəsulu buyurur: **"Sizlərdən ən xeyirliniz ailəsinə (həyat yoldaşına) qarşı ən xeyirli olandır, mən isə aranızda ailəsinə qarşı ən xeyirli olanam"[25]** Aişə bizə xəbər verir ki, Allah Rəsulu ailəsinin xidmətində olar, xanımlarına yardım edərdi, namaz vaxtı gəldikdə isə namaza gedərdi.[26] Napoleonun ev işləri ilə məşğul olduğunu təsəvvür etmək mümkündürmü?

Mədinəyə hicrət etdikdən sonra belə o uzun illər öncə vəfat etmiş ilk xanımı Xədicəni unutmamış, onu o qədər yad etmişdir ki, Aişə Xədicədən başqa heç bir qadına onu qısqanmadığını deyir. Allah Rəsulu bəzən qoyun kəsər, ətini isə Xədicənin rəfiqələrinə paylayardı. Aişə "elə bil dünyada ondan başqa qadın yoxdur" dedikdə isə Xədicənin gözəl xislətlərini sayardı.[27]

Allah Rəsulu Vida Həccində ümmətindən yüz min insana xitab edib onlara ən vacib nəsihətləri etdikdə də qadınaları unutmur və deyir: **"Ey**

---

[22] Buxari, 5626
[23] Buxari, 2477
[24] Sunən Tirmizi, 1916
[25] Tirmizi, 3895
[26] Buxari, 5692
[27] Buxari, 3558

**insanlar, sizin xanımlarınızın sizin üzərində haqqları var, sizin də onların üzərində haqqlarınız var... Onlara gözəl rəftar edin, onlar Allahın sizə verdiyi əmanətdir**."[28]

Digər hədisdə Allah Rəsulu : "Ey Əncəşə, yavaş sür, sındırarsan "qavarirləri""[29] deyir. Qavarir şüşədən düzəldilmiş gözəl su qablarına deyilir. Qadın incəliyini, gözəlliyini və təmizliyini bir kəlimə ilə vəsf etmək istədiyimizdə bundan gözəl kəlimə tapa bilmərik. Qadınlar haqda qeyd edəcəyimiz son hədisi isə bizə Aişə rəvayət edir və deyir ki, bir cavan qız onun yanına gəldi və atasının onu razı olmadığı halda qardaşı oğluna ərə verdiyini dedi. Allah Rəsulu gəldikdə isə qızın atasını çağırdı və seçimi qızın ixtiyarına buraxdı.[30] Gördüyümüz kimi Allah Rəsulu qızın tərəfini saxlamış və həyat yoldaşı seçmək ixtiyarını ona tanımışdır.

**Kibirdən uzaq durması**

Allah Rəsulunun qayğısı insanlar arasında ən aşağı sosial statusa malik olanlara da aid idi. Əbu Hureyrə xəbər verir ki, məscidin təmizliyi ilə məşğul olan qaradərili qadın öldükdə Allah Rəsulunun bundan xəbəri olmayıb, səhabələr də ona xəbər verməmişdi. Allah Rəsulu qadının gəlmədiyini gördükdə onun halını soruşur və öldüyünü bildikdə əshabını "Niyə görə mənə xəbər etmədiniz?" deyərək qınayır. Sonra onun qəbrinin yerini soruşur və qəbri üzərində namaz qılır.[31]

Bundan da ziyadə, Peyğəmbər ona qarşı pis davranış edənə belə gözəl şəkildə qarşılıq vermişdir. Əbu Səid əl-Xudri deyir ki, bir bədəvi ərəb Allah Rəsulunun yanına gəldi və borcunu ödəməsini çox şiddətli şəkildə tələb etdi və dedi: "borcumu verənə qədər səni sıxışdıracam". Bunun

[28] Tirmizi, 1123
[29] Buxari 5707, Muslim 2323
[30] ibn Macə, 1874
[31] Buxari, 1272

üzərinə əshab onu qınamağa başladı. Onlar dedi: "Vay sənin halına, kiminlə danışdığını bilirsən?" Allah Rəsulu isə onlara "Kaş ki, haqq sahibinin tərəfində olardız" dedi və digər səhabəsindən borc alaraq adamın borcunu ödədi və hətta əlavə olaraq ona hədiyyə də verdi.[32] Allah Rəsulunun kobudca danışana lütf ilə muamələ etməsi ilə bərabər onun bir bədəvidən, sonra isə başqa səhabəsindən borc almasına da diqqət yetirin. Tarix yanındakılardan borc alan başqa bir başçı, lider tanıyırmı? Bu, bizə bir daha göstərir ki, bu şəxsiyyət dünya malı və şəxsi mənfəətdən ən uzaq adam olub.

Daha da əcaib olan Allah Rəsulunun ona qarşı müharibə edənləri və onu öldürmək istəyənlərə verdiyi qarşılıqdır. Cabir ibn Abdullah səfərlərin birində Allah Rəsulunun silahını ağacdan asmış halda insanlardan ayrı istirahət etdiyini bizə xəbər verir. Müşriklərdən biri onun silahını alır və istehzalı şəkildə: "İndi səni məndən kim qoruyacaq?" deyir. Allah Rəsulu "Allah" dedikdə silah kişinin əlindən düşür. Bu dəfə silahı Allah Rəsulu götürür, lakin kişi ona qarşı birdə müharibə etməyəcəyini söz verəndə onu əfv edir və sərbəst buraxır.[33]

Hətta ona və əshabına qarşı dəfələrlə pislik edən və ən böyük düşməni Əbu Cəhilin oğlu İkrimə müşrik olaraq ondan aman diləyəndə ona aman vermişdir. Bunu görən İkrimə yerindəcə İslamı qəbul edir.[34] Ən çox sevdiyi insanlardan biri olan əmisi Həmzənin qatilini də əfv etməsini qeyd etməmiz lazımdır. Onu öldürmək istəyən, ona istehza edən o qədər insanı əfv etmişdir ki, hamsını saymaq çox çətin olar.

Uhud döyüşündə müsəlman ordusu kor bir kişinin bostanından keçmək istədikdə o, əlinə bir ovuc torpaq aldı və dedi: "Bostanımdan keçməyə

[32] ibn Hibbən, 2426
[33] Buxari 4139, Muslim 4353
[34] Hakim, 5011

sənə icazə vermirəm. Bilsəydim ki, səndən başqasına isabət etməyəcəm bunu sənin üzünə atardım". Səhabələr onu bu sözlərinə görə öldürmək istədikdə Allah Rəsulu onlara icazə vermədi və dedi: "Onu buraxın. Onun həm gözləri, həm də qəlbi kordur".
Ona qarşı müharibə edən, ona əziyyət edən və vətənindən didərgin edən başda Əbu Sufyan olmaqla Məkkə əhlinə qarşılıq olaraq o nə etdi? Məkkəni fəth etdikdə şəhərə başını aşağı salmış şəkildə daxil olur və "gedin, siz azadsınız" deyərək onları bağışlayır. Ona sehr edən yəhudi kişini və yeməyinə zəhər qatan yəhudi qadını da əfv etmişdir. Ona düşmən kəsilən bütün bu insanlara rəhmətini Aişə bir cümləylə ifadə edir: **"Allah Rəsulu heç bir zaman şəxsən özünə görə heç kimdən intiqam almadı. Sadəcə Allahın haqqı tapdalandıqda Allah üçün intiqam alardı"[35]**

## Təvazökarlığı

O özünü heç vaxt əshabından ayırmaz, onlardan biri kimi görünməyə çalışardı. Hamı kimi yerdə oturar, üzərində oturmaq üçün balış gətirildikdə isə onu başqasına verərdi.[36] Onu tanımayan birisi məclisə gəldikdə Muhamməddin kim olduğunu soruşmalı idi, əks təqdirdə onu tanıya bilməzdi, çünki o əshabından heç nə ilə seçilmirdi.[37] Ənəs deyir: **"Əshabının ən çox sevdiyi şəxs Allah Rəsulu olmasına baxmayaraq onu gördükdə heç vaxt ayağa qalxmazdılar. Çünki bunu sevmədiyini bilirdilər"[38]**
Allah Rəsulu nə qədər dəyərsiz olsa da, ona verilən hədiyyəni heç vaxt geri çevirməz, onu qəbul edər və bir müddət sonra isə o hədiyyəyə

[35] Buxari 3296, Muslim 4294
[36] Buxari, 6277
[37] Əbu Davud, 4698
[38] Tirmizi, 335

qarşılıq verərdi. Çağrıldığı məclislərə gedər, hətta qul olan birisinin dəvətini rədd etməzdi. Qabağına qoyulan yeməyi heç bir zaman pisləməz, xoşuna gəlsə yeyər, gəlməsə isə yeməzdi.[39] Yenə Ənəs deyir ki, Allah Rəsulunun qulağına kimsə bir söz deyəndə heç bir zaman başını birinci çəkməzdi, əlini sıxanda da əlini birinci buraxmazdı.[40]

Heç bir siyasi rolu olmayan İngiltərə kraliçası Elizabetin əlini sıradan birisinin sıxa bildiyini təsəvvür edə bilirsinizmi?! Onun qəbuluna düşmək bir yana, qəbulunda baş əyməyən, ondan öncə danışan biri ədəbsizlik etmiş sayılacaq. Bunun müqabilində 21-ci əsrdə deyil, Ərəb çöllüyünün 7-ci əsrində yaşayan Allah Rəsulunun isə heç qapıçısı belə olmayıb. Öz şəxsi əşyalarını kiməsə daşıtdırmayan, əksinə, səfərlərdə minik çatışmadığı üçün hamı ilə bərabər növbələşən, odun yığmaqda, məscid tikməkdə, xəndək qazmaqda əshabına yardım edən bir başçı.

Allah Rəsulunun örnək davranışları heyvanlardan da təsirsiz ötüşməyib. Abdullah ibn Məsud deyir: **"Səfərlərin birində iki balası olan kiçik bir quş gördük və balalarını ondan aldıq. Allah Rəsulu gəldikdə dedi: Buna kim əzab verdi? Balasını özünə qaytarın!"[41]** O heyvanlara daşıyabilməyəcək yük yükləməyi və onları ac buraxmağı qadağan etmiş,[42] ox atıcılığında məşq edərkən canlı heyvanı hədəf edəni isə lənətləmişdir.[43]

[39] Buxari 5093, Muslim 2034
[40] Əbu Davud, 4794
[41] Əbu Davud, 5268
[42] Əbu Davud, 2189
[43] Buxari 5195, Muslim 1958

**-4-**

Allah Rəsulunun şücaəti haqda soruşsan Bəra ibn Azib sənə deyəcək: **"Savaşın ən şiddətli vaxtı onun arxasında gizlənərdik, aramızda şücaətli olan isə onunla eyni səffdə döyüşən idi"**[44]

Onun səxavəti haqda soruşsan Ənəs sənə deyəcək: **"Elə olmayıb ki, bir kişi Allah Rəsulundan bir şey istəsin, o isə onu ona verməsin. Bir kişi onun yanına gəldi və Allah Rəsulu ona iki təpənin arasını dolduracaq qədər qoyun verdi. Kişi öz qövmünə qayıtdı və dedi: Ey qövmüm, İslama daxil olun, çünki Muhamməd yoxsulluqdan qorxmayan biri kimi hədiyyələr verir"**[45]

Onun həyası haqda soruşsan Əbu Səid əl-Xudri sənə deyəcək: **"Allah Rəsulu otağında oturan bakirə qızdan daha həyalı idi, bir şey onun xoşuna gəlməyəndə bunu üzündən anlayardıq".**[46]

Onun aclığa səbri haqda soruşsan xanımı Aişə sənə deyəcək: **"Allah Rəsulu heç bir zaman üç gün dalbadal buğda çörəyi ilə doymadı".**[47]

Çətin həyata dözümü haqda soruşsan Əbu Hureyra sənə deyəcək ki, o Allah Rəsulunun üzərində iz saxlayan həsrin üstündə yatar, həsirin üzərinə xalça qoymaq istədiklərində isə deyərdi: "Bu dünyadan mənə nə? Mənim və dünyanın misalı ağacın kölgəsində istirahət edən, sonra isə onu tərk edən bir atlının misalıdır"[48]

Allah Rəsulunun Rəbbinə qarşı muamiləsini də qeyd etməyi unutmamalıyıq. Huzeyfə onun gecə namazını vəsf edir və bir rükətdə Bəqərə, Əli İmran və Nisa surələrini oxuduğunu deyir, bu üç sürə isə

[44] Muslim, 1772
[45] Muslim, 2313
[46] Buxari 3329, Muslim 2320
[47] Buxari 6089, Muslim 2970
[48] Tirmizi, 2377

Quranın altıda birinə bərabərdir. Onun Allah zikri haqda soruşsan Aişə deyəcək: **"Allah Rəsulu daima Allahı zikr edərdi"**[49]

Onun Allahdan bağışlanma diləməsi haqda soruşsan ibn Ömər deyəcək: **"Allah Rəsulu bir məsclisdə yüz dəfə "Rəbbim məni bağıla və tövbəmi qəbul et, həqiqətən də Sən tövbələri Qəbul edən, Rəhimlisən"** deyərdi"[50].

Allahın nemətlərinə şükrü haqda soruşsan Muğirə ibn Şu`bə deyəcək: **"Allah Rəsulunun çoxlu ibadət etməkdən ayaqları şişdiyində ona dedik: "Ey Allah Rəsulu, Allah sənin keçmiş və gələcək günahlarını bağışlayıb". O isə cavab verərdi: "Şükr edən bir qul olmayımmı?"**[51]

Allah Rəsulu yalançı olsa özünə əziyyət verməz, "bu ibadətlər sadəcə sizə vacibdir, mənim isə günhalarım artıq bağışlanıb" deyərdi.

Necə ki biz bunu nübuvvət və ya Allah qatında yüksək dərəcədə olduğunu iddia edən bir çox şəxsdə müşahidə edirik.

Bütün bunları bildikdən sonra bu insanın ən qəlbiqara, yalançı, Aləmlərin Rəbbinə iftira atan, milyardlarca insanın zəlalətinə səbəb olan birisi olduğunu deyə bilərikmi?

Ümid edirik ki, bu uzun yazımızda Allah Rəsulunun gözəl əxlaqa, heç bir zaman yalan deməyən qəlbə sahib olduğunu və onun heç bir dünya mənfəəti güdmədiyini göstərə bildik. Bunları bildikdən sonra ona iman edib etməmək hər bir kəsin şəxsi seçimidir.

---

[49] Muslim, 373

[50] Tirmizi, 3434

[51] Buxari 4557, Muslim 2819